# No. 49924

## Multilateral

**Nakhchivan Agreement on the establishment of the Cooperation Council of Turkic Speaking States. Nakhchivan, 3 October 2009**

**Entry into force:** *17 November 2010, in accordance with article 22*

**Authentic texts:** *Azeri, English, Kazakh, Kyrgyz and Turkish*

**Registration with the Secretariat of the United Nations:** *Turkey, 2 July 2012*

## Multilatéral

**Accord de Nakhitchevan portant création du Conseil de coopération des États de langue turcique. Nakhitchevan, 3 octobre 2009**

**Entrée en vigueur :** *17 novembre 2010, conformément à l'article 22*

**Textes authentiques :** *azéri, anglais, kazakh, kirghize et turc*

**Enregistrement auprès du Secrétariat de l'Organisation des Nations Unies :** *Turquie, 2 juillet 2012*

| Participant | Notification | | |
|---|---|---|---|
| Azerbaijan | 12 Jan. | 2010 | n |
| Kazakhstan | 18 Oct. | 2010 | n |
| Turkey | 16 July | 2010 | n |

| Participant | Notification | | |
|---|---|---|---|
| Azerbaïdjan | 12 janv. | 2010 | n |
| Kazakhstan | 18 oct. | 2010 | n |
| Turquie | 16 juill. | 2010 | n |

[ AZERI TEXT – TEXTE AZÉRI ]

# TÜRKDİLLİ DÖVLƏTLƏRİN ƏMƏKDAŞLIQ ŞURASININ YARADILMASI HAQQINDA

# NAXÇIVAN SAZİŞİ

Bundan sonra "Tərəflər" adlanacaq Türkdilli dövlətlər;

xalqları arasındakı tarixi bağlara, ümumi dil, mədəniyyət və ənənələrə əsaslanaraq;

bundan sonra da hərtərəfli əməkdaşlığın dərinləşməsinə səy göstərərək;

siyasi çoxqütblülük, iqtisadi və informasiya qlobalizasiyası proseslərinin inkişafı şəraitində regionda sülhün möhkəmləndirilməsi, təhlükəsizlik və sabitliyin təmin edilməsinə birgə töhfə verilməsini arzulayaraq;

ümumi qurum çərçivəsində qarşılıqlı əlaqənin dövlətlər və onların xalqları arasında xoşqonşuluq, vahidləşmə və əməkdaşlıq üçün geniş potensialdan faydalanmağa şərait yaratdığını hesab edərək;

Türkdilli dövlət başçılarının Zirvə Toplantısında təsdiqini tapmış qarşılıqlı etimad, qarşılıqlı fayda, bərabərlik ruhu, qarşılıqlı məsləhətləşmələr və ümumi inkişafa yönəlmiş niyyətlərdən çıxış edərək;

Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin məqsəd və prinsiplərinə, beynəlxalq hüququn ümumqəbulolunmuş prinsip və normalarına, o cümlədən suveren bərabərlik, ərazi bütövlüyü və dövlətlərin beynəlxalq tanınmış sərhədlərinin toxunulmazlığı, həmçinin beynəlxalq sülh, təhlükəsizlik, xoşqonşuluq və dostluq münasibətlərinin inkişafının qorunması və dövlətlər arasında əməkdaşlıq prinsiplərinə sadiqliklərini təsdiq edərək;

aşağıdakılara dair razılığa gəldilər:

**Maddə 1**
**Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası**

Bununla, Tərəflər, beynəlxalq təşkilat – "Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası" formasında əməkdaşlıq mexanizmini yaradırlar (bundan sonra TDƏŞ adlanacaq).

**Maddə 2**
**Məqsəd və vəzifələr**

TDƏŞ-in əsas məqsəd və vəzifələri aşağıdakılardır:

tərəflər arasında qarşılıqlı etimad, dostluq və xoşqonşuluğun möhkəmləndirilməsi;

region və ümumilikdə dünyada sülhün qorunması, təhlükəsizlik və etimadın gücləndirilməsi;

qarşılıqlı maraq doğuran xarici siyasət məsələləri, o cümlədən beynəlxalq təşkilatlar çərçivəsində və beynəlxalq forumlardakı məsələlər üzrə ümumi yanaşmanın araşdırılması;

beynəlxalq terrorizm, separatçılıq, ekstremizm, insan alveri, narkobiznesə qarşı mübarizədə fəaliyyətin əlaqələndirilməsi, həmçinin narkotik vasitələrin və psixotrop maddələrin qeyri-qanuni dövriyyəsinə nəzarət üzrə beynəlxalq siyasətə yardım göstərilməsi;

siyasi, ticari-iqtisadi, hüquq-mühafizə, təbiətin mühafizəsi, mədəni, elmi-texniki, hərbi-texniki, təhsil, enerji, nəqliyyat, kredit-maliyyə və ümumi maraq kəsb edən digər sahələrdə səmərəli regional və ikitərəfli əməkdaşlığın təşviqi;

əmtəələrin, kapitalın, xidmət və texnologiyaların hərəkətinin asanlaşdırılması, maliyyə və bank əməliyyatlarının sadələşdirilməsi məqsədilə ticarət, investisiya, gömrük və tranzit prosedurlarının gələcəkdə sadələşdirilməsi üçün əlverişli şəraitin yaradılması;

Tərəflərin xalqlarının həyat səviyyəsinin daim yüksəldilməsi və həyat şəraitinin yaxşılaşdırılması məqsədilə bərabərhüquqlu tərəfdaşlıq əsasında birgə fəaliyyət vasitəsilə regionda hərtərəfli və balanslaşdırılmış iqtisadi yüksəlişə, sosial və mədəni inkişafa səy göstərilməsi;

beynəlxalq hüququn ümumqəbulolunmuş prinsip və normalarına uyğun olaraq qanunun aliliyi, səmərəli idarəçilik və əsas insan hüquq və azadlıqlarının təminatı üzrə məsələlərin müzakirəsi;

elm, texnika, təhsil, səhiyyə, mədəniyyət, gənclər, idman və turizm sahəsində qarşılıqlı əlaqələrin genişləndirilməsi;

türk xalqlarının böyük mədəni-tarixi irsinin təbliği, tanınması və yayılmasında kütləvi-informasiya vasitələri arasında qarşılıqlı əlaqənin və tərəflər arasında təmasların təşviqi;

qarşılıqlı əlaqənin inkişafı məqsədilə hüquqi məlumatın mübadiləsi, qarşılıqlı hüquqi yardımın göstərilməsi və hüquqi münasibətlərin müxtəlif sahələrində əməkdaşlıq üzrə məsələlərin müzakirəsi.

Maddə 3

**Struktur**

Hazırkı Sazişin məqsəd və vəzifələrinin yerinə yetirilməsi üçün aşağıdakılar təsis edilir:

- Dövlət Başçıları Şurası
- Xarici İşlər Nazirləri Şurası
- Yüksək Vəzifəli Şəxslər Komitəsi
- Türkdilli Dövlətlərin Ağsaqqallar Şurası
- Katiblik

Maddə 4

**Əməkdaşlığın digər formaları**

Türkdilli ölkələrin parlamentləri arasında əməkdaşlığın dərinləşdirilməsi məqsədilə 21 noyabr 2008-ci il tarixli İstanbul Sazişinə uyğun olaraq Türkdilli Ölkələrin Parlament Assambleyası fəaliyyət göstərir.

Elm, təhsil, mədəniyyət və incəsənət sahəsində əməkdaşlığın inkişafı, türk dünyasının ümumi dəyərlərinin beynəlxalq səviyyədə yayılması və tanınması, türkdilli dövlətlər arasında mədəni əlaqələrin dərinləşdirilməsi məqsədilə Tərəflər TÜRKSOY çərçivəsində əməkdaşlıq edirlər.

Maddə 5

**Dövlət Başçıları Şurası**

Dövlət Başçıları Şurası (DBŞ) öz fəaliyyətini Tərəflərin dövlət başçılarının mütəmadi görüşləri formasında həyata keçirir. Bu çərçivədə:

- aktual beynəlxalq problemlərin həlli üzrə Tərəflərin qarşılıqlı əlaqəsi məsələləri nəzərdən keçirilir;
- TDƏŞ çərçivəsində Tərəflərin əməkdaşlığının prioritet istiqamətləri müəyyən olunur;
- TDƏŞ-in fəaliyyətinin icmalı həyata keçirilir.